**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNNOVASİYALAR BAZARINDA KİÇİK MÜƏSSİSƏLƏRİN DAYANIQLIĞININ İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Elnur Aqşin oğlu Ağazadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Dövlət Universitetinin “İqtisadiyyat” kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri doktoru, professor<br>**Pəri Əmirəhməd qızı Həsənova** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, dosent<br>**Fikrət Vəli oğlu Quliyev** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Turanə Vahid qızı Əhmədova** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru<br>**Gülnarə Sərxan qızı Cəfərova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın həqiqi üzvü,<br>iqtisad elmləri doktoru, professor<br>**Ziyad Əliabbas oğlu Səmədzadə** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Samirə Yaşar qızı Məmmədova** |
| Elmi seminarın sədri: ____________ | iqtisad elmləri doktoru, professor<br>**Elşən Əli oğlu İbrahimov** |

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İqtisadiyyatın innovativ inkişafı, dövlət qurumlarının, sahə nazirliklərinin, idarəetmə orqanlarının və həmçinin müəssisələrin iqtisadi siyasətində prioritet istiqamət kimi qəbul edilməlidir. Hökumətin həyata keçirdiyi müxtəlif proqramlar, ölkə iqtisadiyyatının innovativ inkişaf yolunu seçməyin əhəmiyyətini vurğulayaraq, bu sahədə ciddi tədbirlərin həyata keçirilməsinin zəruriliyini göstərir. Beynəlxalq təcrübədə müşahidə edilən texniki-iqtisadi sıçrayışlar və ya böhran halları, eləcə də müflisləşmələr, müasir qlobal iqtisadi sistemdə innovativ inkişaf yolunun alternativsiz olduğunu sübut edir. Ölkə iqtisadiyyatını irəli aparmaq və rəqabət qabiliyyətli dövlətə çevrilmək üçün istehsal və xidmət sektorlarında innovativ inkişafın əldə edilməsi mütləqdir. Müasir dövrdə qeyri-neft sektorunun diversifikasiyası və təkmilləşdirilməsi vacib məsələlərdən biridir. Bu sektorda pay sahibi olan kiçik müəssisələr innovasiyalar bazarında və dayanıqlı iqtisadiyyatın qurulmasında vacib rola malikdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları və sərəncamları ilə 06 dekabr 2016-cı ildə təsdiq olunmuş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”[1] və həmçinin 2021-ci il 2 fevralda qəbul edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə[2] əsasən ölkəmizin sosial yönümlü innovativ iqtisadi inkişafa keçidi ilə bağlı müəyyən edilmiş istiqamətlər müəyyənləşdirilmişdir. Belə ki, Strateji Yol Xəritəsində və Milli Prioritetlərdə müvafiq olaraq ölkəmizin rəqabətədavamlılıq, innovasiya potensialının artırılması və sosial yönümlü iqtisadi inkişaf məsələləri gələcək məqsədlər kimi öz əksini tapmışdır.

---

[1] Azərbaycan Respublikası Prezidenti. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin təsdiq edilməsi haqqında Fərman//6 dekabr 2016-cı il. – Bakı: – 2016.

[2] Azərbaycan Respublikası Prezidentinin Rəsmi Saytı. *Azərbaycan 2030: Sosial-iqtisadi İnkişafa dair Milli Prioritetlər* [Elektron resurs]/Azərbaycan Respublikası Prezidentinin Rəsmi Saytı. – 2 fevral, 2021.URL: https://president.az/az/articles/view/50474

İnnovasiya prosesinin uğurlu reallaşması üçün müxtəlif resursların istehsal prosesinə cəlb olunması vacibdir. Bu resurslar əsasən yeni və ya modernləşdirilmiş məhsul növlərinin istehsalı ilə əlaqədar olan xərcləri əhatə edir və onların istehsala tətbiqi, habelə geniş miqyasda istehsalının təmin edilməsi ilə bağlıdır. Ölkəmizdə bu resurslar innovativ fəaliyyətin müxtəlif istiqamətlərinə yönəldilsə də, gözlənilən və əldə edilən nəticələr arasında ciddi fərqlər mövcuddur. Ümumilikdə, Azərbaycanda kiçik müəssisələrin innovasiyalar bazarında dayanıqlı fəaliyyət göstərməsinə mane olan, başqa sözlə desək, bu müəssisələrin dayanıqlığında müxtəlif daxili və xarici təsirlərin rolundan yaranan bir sıra problemlər mövcuddur. Bu problemlərə kiçik müəssisələrin innovasiya prosesinin icrasında rəqabətqabiliyyətinin aşağı səvviyədə olması, maliyyə resusrlarının məhdudluğu, insan resurslarının zəif inkişaf etməsi xüsusilə də yüksək ixtisaslı kadrlara əlçatımlılıq məsələsi, tələb olunan dövlət dəstəyi, hüquqi tənzimləmə məsələləri və s. məsələləri göstərə bilərik.

Müasir qloballaşan dünyada innovasiya prosesi iqtisadiyyatın müxtəlif sektorlarına nüfuz etmişdir. Azərbaycanda dövlət tərəfindən xüsusilə də, son illərdə KOB-lara dəstək tədbirlərinə önəm verilməsi və bu istiqamətdə atılan müxtəlif addımları nəzərə alaraq, kiçik müəssisələrdə innovasiyaların tətbiqi və dayanıqlı şəkildə innovativ inkişafın həyata keçirilməsinin aktuallığını vurğulaya bilərik.

Məhsul çeşidinin innovativ inkişaf əsasında mütəmadi olaraq yenilənməsinin zəruri olduğu bir dövrdə, müəssisələrin dayanıqlığının qorunması əsas prioritet olmalıdır. Dayanıqlı bir sistem, məhsulun rəqabət qabiliyyətini uzun müddət saxlaya bilir. Qısamüddətli dövrdə rəqabət qabiliyyətini və nəticə etibarilə dayanıqlığını itirsə belə, sistem yenidən əvvəlki tarazlıq vəziyyətinə dönə bilir.

Dayanıqlığın müxtəlif aspektləri mövcuddur, lakin bu aspektlər iki əsas prizma əsasında qiymətləndirilir: dayanıqlıq potensialının varlığı və bu potensialın səmərəli istifadəsinin təmin edilməsi. Müasir innovativ yönümlü istehsal əsasında formalaşan dayanıqlıq potensialı, dayanıqlı vəziyyətin bərpasını mümkün edir. Bu səbəbdən bir çox tədqiqatçılar, dayanıqlıq potensialı ilə innovasiya potensialını bərabər tuturlar. Bununla belə, bu potensialın formalaşdırılması üçün müəssisəyə ciddi maliyyə və digər resurslar tələb olunur ki, bu da

müəssisənin dayanıqlığını təhlükə altına sala bilər. Həmçinin, innovasiyanın tətbiqi müəyyən vaxt tələb edir ki, bu müddət ərzində dayanıqlıq da pozula bilər.

Kiçik müəssisələrin innovasiyalar bazarında dayanıqlı fəaliyyət göstərməsi üçün onların investisiya təminatı da səmərəli idarə edilməlidir. İnnovativ layihələrin maliyyələşməsində olan bir sıra məhdudiyyətlər kiçik müəssisələrin əsas problemlərindən biri hesab olunur. Bu baxımdan qeyd edə bilərik ki, bu müəssisələrin kapitala çıxış imkanlarının zəif olması, risklərin yüksəkliyi və bazar qeyri-müəyyənliyi, institusional mexanizmlərin yetərli səviyyədə olmaması investisiya qərarlarının qəbulunda çətinlik yaratmaqla investisiya təminatının idarə edilməsini aktual edir.

Bu səbəbdən, innovativ inkişaf və dayanıqlığın tədqiqində bütün xüsusiyyətlər və onların qarşılıqlı əlaqələri nəzərə alınmalıdır. Lakin innovasiya potensialının mövcudluğuna baxmayaraq, dəyişkən və qeyri-müəyyən mühit şəraitində dayanıqlı inkişafın təmin edilməsi üçün müəssisənin bütün idarəetmə səviyyələrində bazar tələbinin monitorinqi aparılmalı, məhsul çeşidi vaxtında dəyişdirilməli, effektiv menecment prinsipləri və müasir marketinq strategiyaları tətbiq edilməlidir. Həmçinin nəzərə almaq lazımdır ki, müəssisənin dayanıqlığına təsir göstərən qərarların qəbulunda səhvlər də baş verə bilər. Belə qərarların nəticəsi isə müəssisələrin fəaliyyətində və inkişafında problemlər yarada bilər. Bütün bunlar kiçik müəssisələrinin dayanıqlığının innovativ inkişaf problemlərinin araşdırılmasının, bu istiqamətdə praktiki təklif və tövsiyələrin hazırlanmasının aktual olduğunu şərtləndirir.

Müəssisələrdə innovativ inkişaf və rəqabətədavamlı dayanıqlığın idarə olunması problemlərinin tədqiqi və öyrənilməsi ilə bağlı bir çox yerli və əcnəbi alimlər tərəfindən həyata keçirilmişdir. Azərbaycan Respublikasının iqtisadçı alimlərindən Səmədzadə Z.Ə., Quliyev E.A., Ataşov B.X., Quliyeva A.E., Məmmədov S.M., Ələkbərov U.K., İbrahimov İ.H., Balayev R.Ə., Məmmədova E.B., İbrahimov E.Ə., Qafarov N.C., Əliyev T.N., Atakişiyev M.C., Əlirzayev Ə.Q., Gənciyev G.Ə., Hüseynov M.M., Hacıyev N.Ö., Həsənov R.T., Qasımov Ə.Ə., Manafov Q.N., Musayev A.F., Həsənova P.Ə., Hüseynov M.C., Hüseynova A.D., Hüseynova X.M., Hüseynova

M.S., İmanov Ə.Ş., Nəcəfov Z.M., Qasımov F.H. və başqaları tərəfindən müxtəlif araşdırmalar aparılıb.

Xarici ölkə alimlərindən isə Abbade, E. B. de Vargas Mores , G., Spanhol, C.P., Al-Sheyadi, A., Muyldermans, L., & Kauppi, Brammer, S., Hoejmose, S., & Marchant, K., Brouwer, E., Clemence R.V., Covin, J.G., Slevin, D.P., Fornel, C., Larcker, D.F., Kleinknecht, A., Schumpeter J.A., Zindiye, S., Chiliya, N., Masocha, R., Hair, J.F., Freman, C. və başqalarını qeyd etmək olar. Hətta F.Engels də "dayanıqlılıq" anlayışının mahiyyəti barədə fikir yürüdüb. Ancaq iqtisadi kateqoriya kimi "Kiçik müəssisələrin dayanıqlı inkişafı" problemləri, bu konsepsiyanın qəbul edilməsindən dərhal sonra elmi araşdırmaların diqqət mərkəzinə çevrildi. Bu tip tədqiqatları iki əsas qrupa bölmək olar: Birinci qrup araşdırmalar iqtisadiyyatın bütövlükdə dayanıqlı inkişafına yönəlmiş, ikinci qrup isə müəyyən iqtisadi fəaliyyət sahələrini əhatə edirdi.

Kiçik müəssisələrin dayanıqlı innovativ inkişaf problemlərinin həlli istiqamətində çoxlu müxtəlif tədqiqat işləri aparılmış, məqalə və monoqrafiyalar hazırlanmışdır. Göstərilən tədqiqatçılar tərəfindən bir sıra aspektlər tədqiq olunmasına baxmayaraq, bəzi problemlər hələ də qalmaqdadır. Təbii ki, hər dövrün, o cümlədən dəyişən dünyanın tələblərinə uyğun olaraq tələblər də dəyişmişdir. Bu da onu deməyə əsas verir ki, bu istiqamətdə dissertasiya işinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi Azərbaycanda innovasiyalar bazarı və bu sahədə dayanıqlı inkişafı təmin edən müxtəlif təşkilati-hüquqi formalı təsərrüfat subyekləri seçilmişdir. Tədqiqatın predmeti olaraq kiçik müəssisələrin innovasiyalar bazarında dayanıqlığının təmin olunmasına təsir göstərən iqtisadi, təşkilati və idarəetmə mexanizmlərinin qarşılıqlı əlaqələrinin tədqiq olunması, regionlarda sosial-iqtisadi vəziyyət və ətraf mühitin makroiqtisadi göstəricilərlə qarşılıqlı əlaqəsinin bir sistem daxilində öyrənilməsi üzrə iqtisadi münasibətlər və qanunauyğunluqlar müəyyən edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində əsas məqsəd sistemli və geniş təhlil əsasında Azərbaycanda müəssisələrin innovativ fəaliyyətinin idarə edilməsi istiqamətində problemləri aşkara çıxarmaq, təcrübi xarakterli elmi cəhətdən əsaslandırılmış təklif və

tövsiyələrin hazırlanmasından ibarətdir. Qeyd olunan məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələrin reallaşdırılması nəzərdə tutulmuşdur:

- müəssisələrin innovasiya fəaliyyətinin nəzəri-metodoloji əsaslarının araşdırılması;
- müəssisənin dayanıqlılıq nəzəriyyələrinin tədqiq edilməsi;
- kiçik müəsisələrin dayanıqlıq potensialını təyin edən amillərin araşdırılması;
- Azərbaycanda innovasiyalar bazarı və kiçik müəsisələrin inkişafı potensialının təhlil edilməsi;
- kiçik müəsisələrin innovativ inkişafının və maliyyə resurslarının səmərəli istifadəsinin idarə edilməsi üçün optimal model və strategiyaların hazırlanması;
- innovativ fəaliyyətin səmərliliyini qiymətləndirmək üçün metodologiyanın hazırlanması;
- kiçik müəssisələrin innovasiyalar bazarında dayanıqlığının təkmilləşdirilməsinə dair dünya təcrübəsinin araşdırılması;
- yuxarıda qeyd olunan vəzifələrin yerinə yetirilməsi ilə bağlı təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın metodları**. Kiçik müəssisələrin innovativ inkişafı və dayanıqlığı sahəsində konseptual müddəalar və elmi metodoloji tövsiyələr kompleksi apardığımız tədqiqatın nəzəri əsasını və metodoloji bazasını təşkil edir.

Dissertasiya işində qarşıya qoyulmuş məsələləri həll etmək üçün sistemli analiz, təhlil, induksiya, iqtisadi modelləşdirmə, SWOT analiz və s. istifadə edilmişdir. Tədqiqatın məlumat mənbələri Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin hesabatları, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları, müxtəlif kredit təşkilatlarının statistik-hesabat materialları, həmçinin müxtəlif xidmətlər göstərən kiçik müəssisə və təşkilatların sənədlərindən ibarətdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə çıxarılan əsas müddəaları aşağıdakı kimi ifadə etmək olar:

- Azərbaycanda innovasiyalar bazarında kiçik müəssisələrin

fəaliyyətində dayanıqlığın idarə edilməsi sistemli şəkildə həyata keçirilmir. Bu səbəbdən müəssisələrin idarə olunmasında strateji əsaslı və inteqrativ dayanıqlıq modeli tətbiq edilməlidir;

- iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsindən yararlanaraq kiçik biznesdə innovasiya mühiti formalaşdırılmalıdır;
- bazar dəyişkənliyi və qeyri-müəyyənlik şəraitində kiçik innovativ müsəssisələrdə risklərin idarəolunmasında proaktiv yanaşmanın olmadığı üçün adaptiv idarəetmə yanaşması institusional səviyyədə təmin edilməlidir;
- rəqəmsal transformasiya səviyyəsinin qeyr-kafi olması kiçik innovativ müəssisələrin rəqabət qabiliyyətinə mənfi təsir göstərir. Bu səbəbdən kiçik müəssisələrin bazar dəyişkənliyinə adaptasiya qabiliyyətini artırmaq məqsədilə rəqəmsal dayanıqlıq strategiyası tətbiq edilməlidir;
- kiçik müəssisələrdə iqtisadi davamlılığın təmin edilməsi üçün vahid metodoloji yanaşmanın tətbiqi və idarəetmənin təkmilləşdirilməsi günün tələbidir;
- kiçik müəssisələrin davamlılığının tədqiqində, həm yerli, həm də xarici müəssisələrdə istifadə olunan göstəricilərin ümumiləşdirilməsi faydalı olardı;
- innovasiyalar bazarında kiçik müəssisələrin dayanıqlı inkişafı və onun idarə edilməsində insan kapitalının inkişaf səviyyəsinin artırılması üçün təlim, bacarıqların inkişafı və innovasiya mədəniyyətinin formalaşdırılmasına ehtiyac vardır;

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi əsasən qlobal və regional bazarlarda artan rəqabət şəraitində kiçik müəssisələrin innovativ fəaliyyətinin artırılması mexanizminin yaradılmasına, həyata keçirilməsinə yönəlmiş metodoloji yanaşmaların və vasitələrin konseptual əsaslandırılmasından, onların praktiki həyata keçirilməsinə dair konkret metod və vasitələrin işlənib hazırlanmasından ibarətdir. Bu baxımdan tədqiqatın elmi yeniliyi aşağıdakılardır:

- ✓ innovasiyanın tətbiq edilməsinə əsaslanmış müəssisənin dayanıqlığının idarə olunmasının təkmilləşdirilməsinin qabaqcıl istiqamətləri müəyyən olunmuşdur;

- ✓ kiçik müəssisələrin innovasiyalar bazarında dayanıqlığının ekonometrik qiymətləndirilməsi aparılmışdır;
- ✓ kiçik müəsisələrin iqtisadi dayanıqlığını artırmaq üçün əsas iqtisadi göstəricilərin təsiri qiymətləndirilmişdir;
- ✓ inkişaf etmiş ölkələrin təcrübəsi əsasında lokal iqtisadi şərtlərə uğunlaşdırılaraq kiçik müəsisələrin innovativ fəaliyyətini dəstəkləmək üçün vergi güzəştləri, subsidiyalar və digər maliyyə təşviqlərini əhatə edən yeni dövlət dəstəyi mexanizmi təklif olunmuşdur;
- ✓ Blokçeyn (Blokchain) texnologiyasının kiçik müəsisələrə inteqrasiyası təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti innovativ yönümlü kiçik müəssisələrin dayanıqlı idarə olunmasına dair sistemli, inteqrativ yanaşmaların formalaşdırılması, mövcud nəzəri baxışları yerli iqtisadi mühitə uyğunlaşdıraraq yeni metodoloji çərçivənin işlənməsindən ibarətdir. İşin praktiki əhəmiyyəti onunla şərtlənir ki, dissertasiya işində təqdim olunan təkliflər və tövsiyələr, müəssisələrdə innovasiya fəaliyyətinin idarə edilməsində praktik problemlərin həlli üçün elmi-metodoloji bazanın təmin olunmasında istifadə edilə bilər. Həmçinin işin nəticələri, innovativ inkişaf sahəsində planlaşdırma və idarəetmə ilə məşğul olan mütəxəssislər üçün faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Bakı Dövlət Universitetində elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun gəlməklə, müasir dövrdə aktual məsələ olaraq elmi seminarlarda müzakirə edilmiş və təqdir olunmuşdur.

Dissertasiya işinin mövzusu üzrə iddiaçının 11 elmi əsəri, o cümlədən, 7 məqalə və 4 tezisi, onlardan 2 məqalə və 2 tezis xaricdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda dərc edilmişdir. Mövzu üzrə müəllifin “The Role Of Financial Reporting İn The Management System Of Economic Entities, İts Status And Purpose” (Toronto, 2023), “Methods, Methods And Rules For Analyzing And Evaluating The Financial Situation Of Economic Entities” (Dortmund, 2023), “Theoretıcal Foundatıons Of The Formatıon And Development Of The Instıtutıon Of Small And

Medıum-Sızed Busınesses” (Nakhchivan, 2024) və “Analysis of the Modern Situation of Taxation in Small and Medium Enterprises” (Baku, 2024) adlı tezisləri dərc olunmuşdur.

Bundan əlavə, iddiaçının “Nağdsız iqtisadiyyatın ölkənin inkişafında rolu” (Bakı, 2022), “Azərbaycanda kiçik müəsisələrin inkişafına təsir edən amillər” (Bakı, 2023), “Müəssislərdə innovasiya fəaliyyətinin tədqiqinin nəzəri aspektləri” (Bakı, 2023), “Directions of increasing the financial stability of small enterprises in Azerbaijan” (Bakı, 2023), “Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlılığı ilə bağlı məhdudiyyətlər” (Bakı, 2023), “Ways Of Strengthening The Financial Stability Of Small Enterprises In Azerbaijan” (Poland, 2024), “Устойчивость инновационной деятельности в малых предприятиях и принципы управления рисками” (Москва, 2025) adlı məqalələri dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Dövlət Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (14714 işarə), I fəsil (80369), II fəsil (73924 işarə), III fəsil (72654 işarə), nəticə (9323 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (19734 işarə) üzrə ümumi həcm 286929 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 250984 işarədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiyanın **giriş** bölməsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın metodları müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti şərh edilmiş, tədqiqat işinin aprobasiyası və dissertasiyanın strukturu qeyd edilmişdir.

Dissertasiyanın ilk fəsli **“Müəssisələrin innovativ fəaliyyətinin nəzəri-metodoloji əsasları”** adlanır və üç paraqrafdan ibarətdir.

Birinci fəslin “Müəssisələrin innovativ fəaliyyəti iqtisadi kateqoriyalar kimi” adlı paraqrafda qeyd olunur ki, texnoloji inkişaf,

ya yeni texnologiyanın yaradılması, ya da xaricdə inkişaf etdirilmiş texnologiyanın tətbiqi vasitəsilə əldə edilə bilər. Birinci üsula texnoloji innovasiya, ikinci üsula isə texnoloji diffuziya deyilir. Bəzi ölkələr xammal emalı sahəsində müqayisəli üstünlüklərə malik olsalar da, gələcəkdə əlverişsiz vəziyyətlə üzləşə bilərlər. Bu ölkələrin ixracatında təbii ehtiyatların payı yüksəkdir və məhsuldarlığı artıran struktur dəyişiklikləri isə az miqyasda həyata keçirilir. Bunun əsas səbəblərindən biri mədənçıxarma və emal sənayesi kimi sahələrin geniş məşğulluq yaratmamasıdır. Hətta bu sahələr adətən yüksək məhsuldarlıq göstərsə də, kənd təsərrüfatı sahəsindən əlavə əmək qüvvəsi cəlb etmək mümkün olmur. Aktiv struktur dəyişiklikləri işçi qüvvəsinin müəssisələr və sektorlar arasında rahatlıqla hərəkəti nəticəsində baş verir.

Sosial-iqtisadi inkişafın hərəkətverici qüvvəsi həmişə elmi-texniki tərəqqi olmuşdur ki, onun əsas məqsədi ekosistemləri qoruyub saxlamaqla, ən az xərc və resursla əhalini məmnun etmək üçün yeni vasitələr tapmaqdır.

Birinci fəslin "Müəssisənin dayanıqlıq nəzəriyyəsi və kiçik innovativ müəssisələrin həyat dövrü" adlanan paraqrafında qeyd edilir ki, dayanıqlı inkişaf, sosial-iqtisadi sistemin sabitliyinin elmi əsaslarına dair araşdırmalara əsasən, indiki və gələcək nəsillərin ehtiyaclarını ödəmək məqsədi ilə iqtisadi, sosial və ekoloji alt sistemlərin uyğunlaşdırılması və balanslaşdırılmış inkişafı kimi geniş şəkildə müəyyən edilir. Hazırkı dövrün ən mühüm problemlərindən biri də ölkənin iqtisadi sektorlarının dayanıqlı artımını təmin etmək üçün həll yollarının tapılmasıdır. "dayanıqlı inkişaf" termini ilk dəfə iqtisadi ədəbiyyatda təxminən 1980-ci illərin sonunda ortaya çıxdı. "Dayanıqlı inkişaf" termini ilkin olaraq ekologiya elmi sahəsində yaranıb, lakin mövcud qlobal iqtisadi böhran və iqtisadi nəzəriyyənin rolu fonunda bu anlayış daha da əhəmiyyət kəsb edib. Bir çox tədqiqatçılar qeyd edir ki, XIX-XX əsrlərdə bir sıra alimlər fəlsəfi və elmi varisliyin dayanıqlı inkişafı haqqında müasir ideyanın əsasını qoyublar.

Sahibkarlıq subyektinin dayanıqlı inkişafının qiymətləndirilməsi və gələcək strategiyalarının planlaşdırılması müəssisənin mövcud vəziyyətinin daha dəqiq təhlili üçün vacib hesab olunur. Təsərrüfat

sisteminin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi və hərtərəfli və əhəmiyyətli göstəricilərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Müəssisənin fəaliyyətinin daha əhəmiyyətli tərəfləri və məqsədlərinin həyata keçirilmə dərəcəsi fəaliyyətin əsas dövrlərini təmsil edən göstəricilərlə xarakterizə olunur.

Birinci fəslin "Kiçik müəssisələrin innovativ fəaliyyətinin idarə edilməsinin sistem elementləri və xüsusiyyətləri" adlanan sonuncu paraqrafında vurğulanır ki, kiçik müəssisələr istər sistemdaxili keyfiyyət dəyişiklikləri, istərsə də sistem fəaliyyətinin növü və mahiyyəti ilə bağlı olsun, bu məqsədlərə nail olmaq üçün vasitələrdir. Onun məqsədi sistemə istehsal gücünü dəyişdirmək qabiliyyətinə malik olan yeni komponentlər və əlaqələr əlavə etməkdir. Buna görə də, uzunmüddətli rəqabət üstünlüyü əldə etmək və nəticədə uzunmüddətli uğurlu əməliyyat əldə etmək dayanıqlı inkişafdan asılıdır. "Elm - istehsal - istehlak" üç mərhələli və bir-biri ilə əlaqəli proses kimi elmi-texniki tərəqqinin əsas hərəkətverici qüvvəsidir. Bu prosesin üçüncü mərhələsi iqtisadi baxımdan ilkin mərhələ hesab olunur. Bu mərhələdə əvvəlki mərhələlərdə istehsal olunan elmi potensial geniş miqyasda həyata keçirilir və iqtisadiyyata təsir göstərir. Bu məqsədlərə nail olmaq üçün keyfiyyətli sistemdaxili dəyişikliklər və ya müəssisələrin xidmət potensialını dəyişə biləcək yeni elementlərin və əlaqələrin sistemə gətirilməsi əsas alətlər kimi istifadə olunur. Təbii ki, innovasiya proseslərinin həyata keçirilməsində məqsəd firmalarının innovasiya potensialını və onların ümumi effektivliyini artırmaqdır.[3]

Dissertasiyanın ikinci fəsli **"İnnovasiyalar bazarında kiçik müəssisələrin dayanıqlığının idarə edilməsinin təhlili və qiymətləndirilməsi"** adlanır və üç paraqrafdan ibarətdir. Bu fəsildə kiçik müəssisələrin inkişaf göstəriciləri nəzərdən keçirilir, innovasiyalar bazarında davamlı inkişaf prosesinin mövcud durumu və perspektivləri müzakirə olunur.

İkinci fəslin "Kiçik müəssisələrin innovasiyalar bazarında

---

[3] Jamil, C.Z.M. Environmental management accounting practices in small medium manufacturing firms / C.Z.M. Jamil, R.Mohamed, F.Muhammad[et al.] // – Procedia: Social and Behavioral Sciences. – 2015. – vol. – 172. p. 619-626.

dayanıqlığının hüquqi bazası” paraqrafında qeyd edilir ki, dövlət siyasətinin kiçik innovasiya sahibkarlığına dəstək verməsi, innovasiya tsiklinin bütün mərhələlərində müvəffəqiyyətlə irəliləməyə kömək edəcək infrastrukturun yaradılmasını tələb edir. Bu, kiçik sahibkarlıq müəssisələrinin idarə olunmasında və onlara dövlət dəstəyində struktur dəyişikliklərinin edilməsi ilə mümkün ola bilər. Təcrübə göstərir ki, dövlət siyasətini həyata keçirmək üçün dəqiq mexanizmlər və təşkilati təminat tələb olunur. Qeyd olunanlara əsaslanaraq ölkənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün istifadə oluna biləcək vergi sistemi amillərinə aşağıdakıları aid edə bilərik: - ölkənin vergi sisteminin rəqabətqabilyyətliliyi; - vergi qanunvericiliyinə riayət olunma səviyyəsi; - vergi ödəyicilərinin maarifləndirilməsi və hüquqlarının qorunması səviyyəsi; - vergi inzibatcılığında şəffaf və muasir standartlara cavab verən informasiya texnologiyalarından istifadə ilə həyata keçirilən metodların tətbiqi; - iqtisadi sistemin tənzimlənməsinə güclü təsir göstərə bilən vergi siyasətinin həyata keçirilməsi və s.

İkinci fəslin “Kiçik müəssisələrin innovasiyalar bazarında dayanıqlığının qiymətləndirilməsi” adlı paraqrafında qeyd olunur ki, kiçik müəssisələrin innovasiya bazarında davamlılığının qiymətləndirilməsi onların fəaliyyətinin müxtəlif aspektlərinin və xarici şəraitin təhlilini əhatə edir. Müəssisənin maliyyə cəhətdən nə qədər sabit olduğunu, yəni öhdəliklərini yerinə yetirib qazanc əldə edə bilib-bilmədiyini anlamaq vacibdir. Burada əsas göstəricilər likvidlik, gəlirlilik və borc səviyyələridir.

Kiçik müəssisələr iqtisadiyyatın çevik fəaliyyət göstərən bir seqmenti kimi məşğulluğun artırılması, regionların sosial-iqtisadi inkişafında rolu, həmçinin rəqabət mühitinin formalaşmasında mühüm rola sahibdir. Bu müəssisələrin yaratdığı əlavə dəyər ölkə iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin real nəticələrini özündə ehtiva edir.

Diaqram 1-də 2021-2024-cü illər üzrə kiçik müəssisələrdə yaradılmış əlavə dəyər üzrə məlumatlar göstərilir.

Diaqramda 2021-ci ildə 2384,3 milyon manat, 2022-ci ildə yaradılmış əlavə dəyər 2 796,1 milyon manat təşkil etmişdir. 2023-cü ildə 3254.9 milyon manat, 2024-cü ildə isə bu rəqəm 3469.6 milyon

manata yüksəlmişdir. Beləliklə, 4 il ərzində qeyd olunan məlumatlara əsasən kiçik müəssisələrdə yaradılmış əlavə dəyərin artımını müşahidə etmək olar.




**Diaqram 1. Kiçik müəssisələrdə yaradılmış əlavə dəyər, milyon manat**

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika komitəsi -* ***https://www.stat.gov.az/source/entrepreneurship/***

Diaqram 2-də isə son dörd il ərzində fəaliyyətdə olan müəssisələrin sayı haqqında məlumatları göstərilir:




**Diaqram 2. Fəaliyyətdə olan kiçik müəssisələrin sayı**

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika komitəsi -* ***https://www.stat.gov.az/source/entrepreneurship/***

Göründüyü kimi, 2021-ci ildə fəaliyyət göstərən müəssisələrin sayı 6856 olmuş, 2022-ci ildə isə bu rəqəm 7760-a, 2023-cü ildə 8610-a,

2024-cü ildə isə bu rəqəm 9737-ə yüksəlmişdir. Nəticə etibarilə, qeyd etmək olar ki, son dörd il ərzində fəaliyyət göstərən kiçik müəssisələrin sayında davamlı artım olmuşdur.

Müəssisələrin elmə və tədqiqata çəkdiyi xərclər onların innovasiya potensialı və həmçinin rəqabət qabiliyyətinin artması baxımından mühüm önəm daşıyır. Aşağıdakı diaqram son 4 il ərzində kiçik müəssisələrin elmi-tədqiqat üzrə çəkdiyi xərcləri göstərir.




**Diaqram 3. Kiçik müəssisələrin elmi-tədqiqat xərcləri, min manat**
***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika komitəsi -* ***https://www.stat.gov.az/source/entrepreneurship/***

Diaqram 3-də 2021,2022,2023 və 2024-cü illər üçün kiçik müəssisələr tərəfindən elmi-tədqiqata ayrılan xərclər üzrə məlumatları göstərir: 2021-ci ildə elmi-tədqiqat üzrə xərclər 7015,2 min manat olmuş, 2022-ci ildə isə bu rəqəm 10244,4 min manata qədər artmışdır. 2023-cü ildə 9877,6 min manata düşmüş və 2024-cü ildə isə 7555,0 min manata qədər azalma müşahidə olunmuşdur.

Cədvəl 1-də isə ayrı-ayrı sahələrin 4 il ərzində elmi-tədqiqata çəkdiyi xərclər öz əksini tapmışdır.

Azərbaycanda kiçik müəssisələrin innovasiyalar bazarında dayanıqlığını qiymətləndirmək məqsədilə ekonometrik təhlil aparılmışdır. Bunun üçün 2014-2023-cü illəri əhatə edən son 10 illik göstəricilərdən istifadə edilmişdir.

**Cədvəl 1**

**Kiçik müəssisələrin elmi-tədqiqat xərcləri, min manat**

| | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 5.2 | - | 35.2 | - |
| Sənaye | 2986.5 | 2784.6 | 76.6 | 224.4 |
| Mədənçıxarma sənayesi | 2952.9 | 2758.1 | 35.0 | 90.4 |
| Emal sənayesi | 33.6 | 26.5 | 21.6 | 55.5 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | - | - | - | 78.5 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | - | - | 20 | - |
| Tikinti | 938.7 | 197.4 | 163.6 | 252.1 |
| Ticarət; nəqliyyat vasitələrinin texniki baxımı | 57.2 | 173.4 | 367.7 | 220.2 |
| Nəqliyyat və anbar idarəçiliyi | 2.9 | 5.4 | - | - |
| Turistlərin yerləşdirilməsi və ictimai qida xidmətləri | - | 11.3 | - | - |
| İnformasiya və telekommunikasiya | 18.1 | 26 | - | - |
| Daşınmaz əmlakla bağlı əməliyyatlar | 0.5 | - | - | - |
| Təhsil | - | 0.1 | - | - |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin təqdimatı | - | 0.4 | 38.6 | - |
| Digər sahələr | 3006.1 | 7045.8 | 9195.9 | 6858.3 |

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika komitəsi –* ***https://www.stat.gov.az/source/entrepreneurship/***

Cədvəl 2-də kiçik müəssisələrdə yaradılmış əlavə dəyər (ƏD), işçilərin sayı (İS) və orta aylıq əməkhaqqı (ƏH), əsas kapitala investisiyalar (İ) və dövriyyə məlumatları (D) müəssisələrin inkişafını və əmək bazarında dayanıqlığını, innovasiya potensialını, innovasiya təşəbbüslərini ifadə etmək üçün seçilmişdir.

**Cədvəl 2**

## Təhlil üçün lazım olan statistik məlumatlar

| İllər | Yaradılmış əlavə dəyər, mln man., cəmi (ƏD) | Orta aylıq nominal əmək haqqı, manat (ƏH) | Əsas kapitala investisiyalar, mln. man., (İ) | İşçilərin sayı, min nəfər (İS) | Dövriyyə milyon manat (D) |
|---|---|---|---|---|---|
| 2014 | 2362.8 | 348.0 | 746.5 | 115.0 | 5951.7 |
| 2015 | 2932,5 | 350.1 | 2123.2 | 87.6 | 4718.4 |
| 2016 | 2928,0 | 338.6 | 2461.0 | 100.9 | 4666.1 |
| 2017 | 3051,9 | 331.5 | 2064.8 | 101.9 | 4884.7 |
| 2018 | 1235,5 | 373.5 | 1046.7 | 76.1 | 2282.0 |
| 2019 | 1423,2 | 437.0 | 494.2 | 85.1 | 2553.8 |
| 2020 | 1617,9 | 533.8 | 380.4 | 92.1 | 2918.1 |
| 2021 | 2384.3 | 528.2 | 892.7 | 102.2 | 4230.0 |
| 2022 | 2796,1 | 575.6 | 955.1 | 104.8 | 4714.8 |
| 2023 | 3200,8 | 642.8 | 794.0 | 110.3 | 5778.4 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hesablanaraq tərtib edilib.*

**Cədvəl 3**

## Korelyasiya təhlili

| | D | ƏD | ƏH | IS | I |
|---|---|---|---|---|---|
| D01 | 1 | 0.86597577 | 0.05388634 | 0.87935104 | 0.30511869 |
| ED | 0.86597577 | 1 | 0.07134421 | 0.67452961 | 0.58856747 |
| EH | 0.05388634 | 0.07134421 | 1 | 0.27251276 | -0.61547326 |
| IS | 0.87935104 | 0.67452961 | 0.27251276 | 1 | -0.01182100 |
| I | 0.30511869 | 0.58856747 | -0.61547326 | -0.01182100 | 1 |

*Mənbə: müəllif tərəfindən hesablanaraq tərtib edilib.*

Cədvəl 3 dəyişənlər arasında korelyasiyanı göstərir. Korrelasiya təhlilinin tətbiq edilməsinin əsas məqsədi kiçik müəssisələrdə iqtisadi göstəricilər və innovasiyalara edilən investisiyalar arasında əlaqəni müəyyən etmək və həmin əlaqənin hansı istiqamətdə olduğunu göstərməkdir. Buradan məlum olur ki, kiçik müəssisələrdə yaradılmış əlavə dəyər (ƏD) və dövriyyə (D) arasında güclü müsbət əlaqə vardır

(0,866). Bu da onu göstərir ki, bir göstəricinin artması digər göstəricinin də artmasına təsir edir. Yaradılmış əlavə dəyərlə (ƏD) yanaşı nominal əmək haqqı (ƏH) göstəricisi ilə dövriyyə (D) göstəricisi arasında çox zəif əlaqə vardır (0,054). İşçi sayı (İS) göstəricisi və dövriyyə (D) göstəricisi arasında əlaqəyə baxdıqda güclü müsbət əlaqə görünür ki, bu da işçi sayının artımının dövriyyənin artmasına təsir etdiyini göstərir (0,879). Əsas kapitala investisiyalar (İ) və dövriyyə (D) arasında müsbət, zəif əlaqə vardır (0,305). Yaradılmış əlavə dəyər (ƏD) ilə nominal əmək haqqı (ƏH) arasında zəif müsbət əlaqə (0,071), işçi sayı (İS) və əsas kapitala investisiyalar (İ) arasında zəif orta müsbət əlaqə vardır (0,675 və 0,589). Orta nominal əmək haqqı ilə (ƏH) işçi sayı (İS) arasında zəif müsbət əlaqə (0,273), əsas kapitala investisiyalar arasında mənfi əlaqə vardır (-0,615). Bu mənfi əlaqə onu bildirir ki, əməkhaqqı azaldıqda işçi sayı azalır. İşçi sayı ilə əsas kapitala investisiyalar arasında da zəif mənfi əlaqə vardır (-0,012).

Reqresiya təhlilinin əsas məqsədi, müəssisələrin innovativ inkişafına təsir göstərən iqtisadi amilləri müəyyən edərək onların təsir gücünü qiymətləndirməkdir. Bu isə öz növbəsində gələcəkdə müəsisələrə qərar qəbul etməkdə və idarəetmədə daha effektiv addımların atılmasında mühüm rola malikdir. Cədvəl 4-dən görünür ki, kiçik müəssisələrdə yaradılmış əlavə dəyər, nominal əmək haqqı və dövriyyə kimi amillər kiçik müəssisələrin innovativ inkişafına investisiyaların qoyulmasına təsir edə bilər. Yaradılmış əlavə dəyərdə olan dəyişikliklər müsbət təsir göstərdiyi üçün müəssisələr üçün mühüm bir siyasət və strategiya göstəricisi rolunda çıxış edə bilər. İşçi sayının təsiri isə bu reqresiya cədvəlindən görünür ki, əhəmiyyətli deyildir.

Beləliklə, ekonometrik təhlilə əsasən kiçik müəssisələrin yaradılmış əlavə dəyəri, nominal əmək haqqı və dövriyyə kimi amillər innovasiya fəaliyyətinin inkişafına təsir göstərir. Əlavə dəyər müəssisənin innovativ inkişafına statistik baxımdan əhəmiyyətli və müsbət təsir göstərir. Başqa sözlə desək, istehsalın gücü və iqtisadi baxımdan dayanıqlıq innovativ fəaliyyətə dəstək verir. Nominal əmək haqqının artması isə müəssisənin xərclərinin artmasına səbəb olduğu üçün innovasiyalara nəzərdə tutulan vəsaitin azalmasına səbəb olur.

**Cədvəl 4**

## Reqresiya təhlili

Dependent Variable: I
Method: Least Squares
Date: 11/01/24 Time: 13:25
Sample: 2014 2023
Included observations: 10

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| D01 | -0.428943 | 0.197935 | -2.167087 | 0.0824 |
| ED | 1.361110 | 0.209300 | 6.503152 | 0.0013 |
| EH | -4.169959 | 0.697513 | -5.978328 | 0.0019 |
| IS | -4.892731 | 14.91349 | -0.328074 | 0.7561 |
| C | 2107.305 | 870.6461 | 2.420392 | 0.0601 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.957812 | Mean dependent var | 1195.860 |
| Adjusted R-squared | 0.924061 | S.D. dependent var | 738.4995 |
| S.E. of regression | 203.5079 | Akaike info criterion | 13.77614 |
| Sum squared resid | 207077.3 | Schwarz criterion | 13.92743 |
| Log likelihood | -63.88070 | Hannan-Quinn criter. | 13.61017 |
| F-statistic | 28.37923 | Durbin-Watson stat | 3.459678 |
| Prob(F-statistic) | 0.001241 | | |

*Mənbə: müəllif tərəfindən hesablanaraq tərtib edilib.*

Üstəlik, işçilərin sayının artması dövriyyənin artmasına müsbət təsir göstərsə də, belə nəticəyə gəlmək olar ki, işçilərin sayı innovasiyanın inkişafına ciddi təsir göstərmir. Bu nəticələr kiçik biznes üçün iqtisadi siyasətin və strategiyanın müəyyən edilməsində əsas göstəricilərin nə qədər vacib olduğunu göstərir.

Müasir innovasiyalı inkişafda rəqəmsal texnologiyaların rolu əvəzolunmazdır. Tədqiqat gedişində Azərbaycanda kiçik müəssisələrin komputer və informasiya texnologiyalarından istifadə dinamikası təhlil edilmişdir. Aşağıda əlavə olunan cədvəl 5-də bu sahədə olan dəyişikləri ehtiva edir.

**Cədvəl 5**

**Azərbaycanda komputerdən istifadə edən mikro və kiçik müəssisələrin dinamikası (2005-2024)**

| İl | Kompüterdən istifadə edən müəssisələrin sayı | 1–4 işçisi olanlar | 5–9 işçisi olanlar | 10–49 işçisi olanlar |
|---|---|---|---|---|
| 2005 | 4160 | 302 | 639 | 1623 |
| 2010 | 7809 | 1360 | 1259 | 2939 |
| 2015 | 12100 | 3064 | 1914 | 4091 |
| 2020 | 15429 | 6950 | 2499 | 3529 |
| 2023 | 16094 | 7907 | 2530 | 3532 |
| 2024 | 16305 | 8006 | 2580 | 3582 |

*Mənbə: AR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir -* https://www.stat.gov.az/source/digital_development/

Cədvəldən görünür ki, ölkəmizdə komputerdən istifadə edən mikro və kiçik müəssisələrin sayında 4 dəfə (4-16 min) artım müşahidə olunur. Xüsusilədə 1-4 işçisi olan mikro müəssisələr bu göstəricini 26 dəfə artıraraq bu artımın əsas hərəkətverici qüvvəsi olaraq nəzərə çarpır. Bu artım göstərir ki, ölkəmizdə kiçik müəssisələr texnologiyanın imkanlarından daha çox faydalanmağa başlamışdır, bu da öz növbəsində, bu müəssisələrin innovasiya fəallığının, rəqabətqabiliyyətinin və həmçinin idarəetmə effektivliyinin artmasını göstərir.

İkinci fəslin "Azərbaycanda innovasiyalar bazarının formalaşmasının mövcud vəziyyətinin təhlili" adlanan paraqrafında qeyd olunur ki, Azərbaycanda innovativ bazarın formalaşması, iqtisadiyyatın müxtəlif sahələrində innovasiyaları stimullaşdırmaq üçün geniş tədbirlər spektrini əhatə edən bir prosesdir. Dövlət tərəfindən verilən dəstək, təhsil və elmin inkişafı, maliyyə infrastrukturu, qanuni zəmanətlər, beynəlxalq əməkdaşlıq və infrastrukturun inkişafı - bütün bunlar, innovativ bazarın uğurlu formalaşmasının əsas elementləridir, ölkənin sabit iqtisadi artımına və rəqabət qabiliyyətinin yüksəlməsinə kömək edir.

Cədvəl 6-da son altı ildə Azərbaycanın reytinqlərini göstərir. Məlumatların mövcudluğu və GII model çərçivəsindəki dəyişikliklər Azərbaycanın GII reytinqlərinin illər üzrə müqayisəsinə təsir edir.

Azərbaycanın GII 2025 reytinqi üçün statistik etibar intervalı 91 ilə 97-ci yerlər arasındadır.

**Cədvəl 6**

**Azərbaycan Qlobal İnnovasiya İndeksi məlumatları (2020-2025-ci illər)**

| İllər | Qlobal İnnovasiya İndeksi | İnnovasiya resursları | İnnovasiya nəticələri |
|---|---|---|---|
| 2020 | 82 | 76 | 86 |
| 2021 | 80 | 74 | 91 |
| 2022 | 93 | 79 | 110 |
| 2023 | 89 | 76 | 104 |
| 2024 | 91 | 88 | 95 |
| 2025 | 94 | 91 | 96 |

*Mənbə: Cədvəl Gİİ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

GII 2025 reytinqi Azərbaycanda innovasiya performansının illər ərzində əvvəlcə yaxşılaşdığını daha sonra isə gerilədiyini görmək olar. Bunun isə bir sıra daxili və xarici səbəbləri ola bilər.

Diaqram 4-də ölkələrin gəlir səviyyələri (adambaşına düşən ÜDM) ilə onların innovasiya performansı (Gİİ indeksi) arasındakı əlaqəni göstərir.




**Diaqram 4. Gİİ gözlənilən və müşahidə edilən innovasiya indeksi (2020-2023 )**
***Mənbə:*** *GII-nin məlumatları əsasında hazırlanmışdır- https://www.wipo.int/edocs/pubdocs/en/wipo-pub-2000-2023/az.pdf.*

Burada üfiqi ox (x oxu) adam başına düşən ÜDM-ni (PPP üzrə məzənnədə) göstərir, yəni ölkənin iqtisadi inkişaf səviyyəsini. Şaquli ox (Y oxu) isə Global İnnovasiya İndeksini, yəni ölkənin innovasiya potensialını və nailiyyətlərini qiymətləndirir. Trend xətti gəlir səviyyəsinə görə gözlənilən innovasiya performansını göstərir. Trend xəttindən yuxarıda yerləşən ölkələr inkişaf səviyyəsinə görə gözləniləndən daha yaxşı innovasiya performansı göstərir, aşağıda yerləşənlər isə zəif nəticə göstərir. Burada Azərbaycanın nöqtəsi trend xəttindən aşağıda yerləşir. Bu isə Azərbaycanın innovasiya performansının ölkənin gəlir səviyyəsinə (adam başına düşən ÜDM) görə gözlənilən səviyyədən aşağı olduğunu göstərir.

5-ci diaqram innovasiya sahəsində ölkələrin performansını müqayisə etmək üçün istifadə olunur.




**Diaqram 5. İnnovasiya resursları və nəticələri arasında əlaqə (2020-2023 )**

***Mənbə:*** *GII-nin məlumatları əsasında hazırlanmışdır- https://www.wipo.int/edocs/pubdocs/en/wipo-pub-2000-2023/az.pdf.*

Burada x oxu ölkələrin innovasiyaya yönəltdiyi resursları(təhsil, tədqiqat, texnologiya qoyulan sərmayə və.s) başqa sözlə desək yatırımları, y oxu isə bu ölkələrin innovasiyadan əldə etdikləri nəticələri (yeni texnlogiyalar, stratapların inkişafı, texnoloji məhsul və xidmətlər və.s) göstərir.

Üçüncü fəsil **“Kiçik müəssisələrin innovasiya şəraitində dayanıqlığının idarə edilməsinin təkmilləşdirilməsi”** adlanır və üç paraqrafdan ibarətdir.

Üçüncü fəslin “Kiçik müəssisələrin innovasiyalar bazarında dayanıqlığının idarə edilməsi üzrə dünya təcrübəsi və Azərbaycanda tətbiqi imkanları” adlanan paraqrafında qeyd olunur ki, innovasiyaların maliyyələşdirilməsi müxtəlif mənbələrdən həyata keçirilə bilər, amma xüsusi vəsaitlərin istifadəsi tez-tez daha perspektivli olur. Xarici təcrübələr göstərir ki, iqtisadi müstəqilliyə malik şirkətlər daha sürətli innovativ addımlar atırlar. Məsələn, Yaponiya və ABŞ kimi ölkələr, innovasiyaların inkişafı üçün əlverişli mühitdə fəaliyyət göstərirlər. Postsovet ölkələrində, məsələn, Rusiya və Qazaxıstan, yerli istehsalçıların maraqlarına xidmət edən innovasiya fondlarının yaradılması diqqətə layiqdir. Dövlət və özəl sektorun birgə iştirak etdiyi bu fondlar, risklərin bölüşdürülməsində əhəmiyyətli üstünlüklər təqdim edir.

Üçüncü fəslin “Kiçik müəssisələrin maliyyə mənbələrin formalaşdırılması və innovasiyaya investisiya axınının təkmilləşdirilməsi” adlanan paraqrafında qeyd olunur ki, müəssisələrin effektiv fəaliyyəti maliyyə dayanıqlığının artırılması üçün daxili maliyyə ehtiyatlarının artmasından asılıdır. Maliyyə resurslarının yaranması, strukturlarının optimallaşdırılması və mexanizm formalarının üzə çıxarılması, təsərrüfat subyektlərinin maliyyə öhdəliklərinin yerinə yetirilməsi, elm və texnikanın nailiyyətlərindən istifadə edərək istehsalın genişləndirilməsi pul gəlirləri və daxilolmaların kiçik müəssisənin maliyyə ehtiyatlarını təşkil etməsi imici artırır. Maliyyə ehtiyatlarının düzgün və səmərəli bölüşdürülməsi bazar iqtisadiyyatı dövründə maliyyə dayanıqlığını artıran əsas amillərdən biridir. Eyni zamanda, maliyyə ehtiyatlarının artması elmi-texniki tərəqqi, idarəetmənin təkmilləşdirilməsi və xarici ölkələrin dəstəyi ilə əlaqədardır.

Kiçik müəssisələrin uğurlu fəaliyyət göstərməsi üçün onların maliyyə resursları məqsədli şəkildə bölüşdürülməlidir. Bu bölüşdürmə müasir dövrdə yeni maliyyə vasitələrinin tətbiqi ilə daha da inkişaf etdirilə bilər. Bu baxımdan, kiçik sahibkarlığın effektiv şəkildə dəstəklənməsi zəruridir, çünki indiyə qədər bu sahədə sistematik yanaşma çatışmazlığı mövcuddur. Buna görə də, kiçik sahibkarlıq üçün

çoxşaxəli bir idarəetmə sistemi formalaşdırmaq məqsədəuyğundur.

Kiçik müəssisələrin maliyyə menecmenti düzgün təşkili sayəsində, maliyyə ehtiyatları ən effektiv şəkildə istifadə edilə bilər. Bu, sərfəli investisiyaların yönəldilməsi və maliyyə bazarında effektiv əməliyyatların aparılması ilə nəticələnir. Kiçik sahibkarlara kredit verən bankların fəaliyyətini artırmaq üçün vergi güzəştləri, stimullaşdırıcı tədbirlər və bölgələrdə bank filiallarının açılması zəruridir. Kredit təminatı məsələləri, girovların az olması səbəbindən kiçik müəssisələrin banklardan kredit əldə etməsini çətinləşdirir. Bu səbəbdən, kredit təminatı sistemlərinin yaradılması vacibdir.

Üçüncü fəslin "Azərbaycanda kiçik müəssisələrin innovativ inkişafına dövlət dəstəyi" adlanan paraqrafında göstərilir ki, kiçik bizneslərin inkişafını təmin etmək üçün sahibkarların uğurlu şirkətlərin təcrübələrindən faydalanaraq yeniliklər axtarması vacibdir. Yeniliklərin tətbiqi və biznes proseslərində dəyişikliklər, inkişafın mühüm amilləridir. Azərbaycanda bu yanaşmanı həyata keçirən nümunələrdən biri "Elektron Ticarət" portalıdır.[4] Son 5 il ərzində Azərbaycanda özəl sektorun inkişafını dəstəkləmək və innovasiyaları stimullaşdırmaq üçün bir sıra yeni qurumlar və proqramlar yaradılmışdır. Buna baxmayaraq, yeni siyasət alətləri hələ tam şəkildə tətbiq olunmur. Həm köhnə, həm də yeni yaranmış dövlət orqanları təşəbbüslər formalaşdırmaq, hazırlamaq və həyata keçirmək üçün tam potensiala malik deyil. Bu, qismən daxili imkanların formalaşdırılması ilə bağlı təbii bir proses olsa da, innovasiya agentləri, yəni müəssisəyə dəstək və innovasiya agentləri, yüksək texnologiyalar parkları, biznes inkubatorları və s. arasında koordinasiyanın limitli olması mövcud proqramların ümumi səmərəliliyini və effektivliyini məhdudlaşdırır. Rəqəmsallaşmaya dəstək proqramlarının hazırlanmasında və həyata keçirilməsində özəl sektorun fəal iştirakı olduqca məhduddur. Bu əməkdaşlıq göstərilən xidmətlərin keyfiyyətini təmin etmək, potensial dəstəyin benefisiarlarının iştirakına nail olmaq və təqdim olunan xidmətlərin dayanıqlılığını artırmaq baxımından zəruridir.

---

[4] Azərbaycan Respublikası Prezidenti. Azərbaycan Respublikasında 2008–2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı haqqında Sərəncam//25 avqust 2008-ci ildə təsdiq edilmişdir. – Bakı: – 2008.

Tədqiqatın yekununda əldə olunan nəticə, təklif və tövsiyələr dissertasiyanın **Nəticə** hissəsində aşağıdakı kimi əks olunmuşdur:

1. Hazırkı mərhələdə, son illərdə ölkəmizdə müəyyən iqtisadi artıma baxmayaraq, iqtisadi vəziyyət tələb olunan səviyyədə deyil. Bu, ilk növbədə, Azərbaycan məhsul və xidmətlərinin rəqabət qabiliyyətinin aşağı olmasından, sənaye istehsalının texnoloji cəhətdən geriliyindən xəbər verir. Yaxın gələcəkdə müəssisələrdə vəziyyətin davamlı olaraq yaxşılaşdırılmasını təmin edəcək qlobal dəyişiklik prosesi yalnız təkrar istehsala əsaslanan innovativ, iqtisadi və təşkilati əsasda mümkündür. Bu, müəssisələrdə bütün daxili inkişaf resurslarının yaradılmasını və səfərbər edilməsini və xüsusilədə, texnoloji inkişafa yönəlmiş müəssisələrdə mövcud intellektual potensialın yaradılmasını və inkişafını tələb edəcəkdir.

2. İnnovativ fəaliyyət müəssisələrin uzunmüddətli mövcudluğu və inkişafı üçün əsas rol oynayır və eyni zamanda rəqabət imkanlarını artırmaq üstünlüyü verir. Müəssisələrin müasir rəqabət üstünlükləri getdikcə daha çox kapital ehtiyatlarına və digər maddi sərvətlərə sahiblik dərəcəsindən deyil, işçilərin innovasiyaları təkmilləşdirmək və reallaşdırmaq qabiliyyətindən asılıdır ki, bu da intellektual kapitala investisiyaların artmasına səbəb olur və iqtisadi inkişafın əsasını təşkil edir.

3. Qloballaşan dünyada rəqabət anlayışı milli səviyyədən beynəlxalq səviyyəyə keçmişdir. Bu dəyişiklik müştəri tələblərini dəyişdirərək müəssisələrdə əhəmiyyətli dəyişikliklərə yol açmışdır. Əvvəlcə yalnız yerli bazarda fəaliyyət göstərən müəssisələr arasında yaşanan rəqabət, qloballaşma nəticəsində qlobal səviyyədəki bütün müəssisələri rəqib etmişdir. Bu vəziyyət müəssisələri dəyişməyə və dayanıqlı inkişaf etməyə məcbur etmişdir. İnnovasiya sahəsində müvəffəqiyyət qazanan müəssisələrin daha böyük rəqabət qabiliyyətinə malik olduğunu nəzərə alaraq, qeyd edə bilərik ki, kiçik və orta müəssisələr yenilik etməli, rəqabət qabiliyyətini artırmalı və təqlid edilməyən yenilikləri vurğulamalıdır.

4. Tədqiqat işində əldə olunan nəticələrə əsasən qeyd edə bilərik ki, ölkəmizdə innovasiyalar bazarı tam formalaşmamışdır. Bu istiqamətdə əsas çatışmazlıqlar innovasiya infrastrukturunun, tədqiqat və inkişaf fəaliyyətinin zəifliyi və həmçinin maliyyə çatışmazlıqları məsələləridir.

Hesab edirik ki, bu problemlərin aradan qaldırılması ölkəmizdə kiçik müəssisələrin innovasiyalara inteqrasiyasını daha da sürətləndirəcək və bazarın formalaşmasında mühüm əhəmiyyət kəsb edəcəkdir.

5. Tədqiqatda innovativ inkişafa nəzəri və praktiki yanaşmalar təhlil edilmiş və dinamik inkişaf edən bazarda müəssisənin davamlılığına təsir edən əsas amillər müəyyən edilmişdir. Müəyyən olunmuşdur ki, innovasiya strategiyasının uğuru təkcə şirkətin daxili resurslarından deyil, həm də onun xarici dəyişikliklərə uyğunlaşma qabiliyyətindən, bazarın digər iştirakçıları ilə əməkdaşlıqdan, müasir rəqəmsal texnologiyalardan istifadədən və ixtisaslı kadrların cəlb edilməsindən asılıdır.

6. Rəqabət mühitində innovativ inkişaf və korporativ davamlılığın idarə edilməsi kompleks və sistemli yanaşma tələb edir. Tədqiqat işində strateji planlaşdırmanın və idarəetmə qərarlarının çevikliyinin vacibliyini vurğulanır ki, bu da şirkətlərə nəinki dəyişikliklərə uyğunlaşmağa, həm də bazar tendensiyalarını aktiv şəkildə formalaşdırmağa imkan verir. Bundan əlavə, tədqiqat zamanı verilən tövsiyələr biznes proseslərinin səmərəliliyinin artırılması, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi, eləcə də şirkətin bazarda mövqeyinin möhkəmləndirilməsində faydalı ola bilər. Bu tövsiyələrin praktiki icrası bizə innovasiya fəaliyyəti ilə bağlı riskləri minimuma endirməyə və yeni texnologiyaların tətbiqi xərclərini optimallaşdırmağa imkan verəcəkdir.

7. İşin mühüm hissəsi innovativ fəaliyyətlə müəssisənin maliyyə sabitliyi arasında əlaqənin müəyyən edilməsi və əsaslandırılması olmuşdur. Müəyyən edilmişdir ki, innovasiyaların tətbiqi təkcə rəqabət qabiliyyətinin artırılmasına deyil, həm də məhsulun diversifikasiyası, istehsal proseslərinin optimallaşdırılması və idarəetmə keyfiyyətinin yüksəldilməsi yolu ilə müəssisənin davamlılığına kömək edir. Həmçinin innovasiya fəaliyyətinin təkmilləşdirilməsi üçün innovasiyaların idarə edilməsi sisteminin tətbiqi, risklərin qiymətləndirilməsi üçün analitik vasitələrdən istifadə və kadrların davamlı təlimi üçün şəraitin yaradılması kimi praktiki tövsiyələr təqdim olunmuşdur.

8. Dissertasiyada aparılan araşdırmalara əsasən qeyd edə bilərik ki, Azərbaycanda innovasiya resursları və nəticələri arasında disbalans

mövcuddur. GİI(Global İnnovasiya İndeksi) məlumatlarına əsasən innovasiyaya sərf olunan vəsaitə baxmayaraq bu istiqamətdə əldə olunan nəticələr zəifdir. Başqa sözlə desək, innovasiya performansı ölkənin gəlir səviyyəsinə görə gözləniləndən aşağı səviyyədədir və həmçinin əldə edilən nəticələrə əsasən qeyd edə bilərik ki, Azərbaycan innovasiya performansını artırmaq üçün innovasiyalara daha çox yatırım etməlidir.

9. Tədqiqatda bilik iqtisadiyyatına keçiddə mühüm amil olan müəssisələrin innovativ inkişafı və dayanıqlılığı üçün əlverişli şəraitin yaradılmasında dövlətin roluna xüsusi diqqət yetirilir. İnnovasiya fəaliyyətinin stimullaşdırılmasına yönəlmiş dövlət dəstəyi milli şirkətlərin rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artıra və beynəlxalq aləmdə mövqelərini möhkəmləndirə bilər.

10.Kiçik müəssisələrin müasir iqtisadi mühitdə uğurlu fəaliyyət göstərməsi üçün təşkilati strukturlarının effektivliyini artırmaq həyati əhəmiyyət kəsb edir. Bu, onların maliyyə resurslarından daha səmərəli istifadə etməyə, bazar dəyişikliklərinə adaptasiya olmağa, müştəri məmnuniyyətini yüksəltməyə və spesifik sahələrdə ixtisaslaşmağa imkan verir. Araşdırmalar, kiçik və orta müəssisələrin çoxunun daha çox qoruyucu innovasiya strategiyaları tətbiq etdiyini göstərir.

11. Araşdırmalar kiçik və orta müəssisələrin əksəriyyətinin daha çox qoruyucu innovasiya strategiyaları tətbiq etdiyini göstərir. Onlar mövcud məhsulları inkişaf etdirərək və dizayn dəyişiklikləri edərək rəqabət üstünlüyü əldə etməyə çalışırlar.Lakin, bu müəssisələr məhsul, proses, xidmət və marketinq sahələrində yeniliklər həyata keçirərkən müxtəlif çətinliklərlə qarşılaşa bilərlər. Kiçik və orta müəssisələrin innovasiya proseslərində ən böyük çətinliklər xarici amillərlə bağlıdır. Bu çətinliklər arasında bürokratik maneələr, dövlət dəstəyi çatışmazlığı, bankların innovasiyalara kifayət qədər dəstək verməməsi və patent hüquqları ilə vergi tətbiqlərinin qeyri-kafi olması önə çıxır. Qlobal rəqabət mühitində kiçik müəssisələrin davamlı fəaliyyət göstərməsi üçün innovasiya növləri və strategiyaları ilə bağlı təkliflər aşağıdakı kimi qruplaşdıra bilərik:

- kiçik müəssisələr, kapital çatışmazlığı səbəbindən innovasiya layihələrinə kifayət qədər sərmayə ayıra bilmir. Bu problemin öhdəsindən gəlmək üçün birgə laboratoriyalar yaradaraq müştərək

innovativ təcrübələr həyata keçirə bilərlər. Bu yanaşma, müəssisələrin innovasiya potensialını artırmağa kömək edə bilər;

- sahibkarların mövcud maliyyə imkanlarını mümkün qədər genişləndirmək vacibdir. Bu sahədə fəaliyyət göstərən kiçik sahibkarlar və müəssisə sahibləri maliyyə resurslarına dövlət dəstəyi ilə yanaşı, özəl qurumların vasitəsilə də çıxış əldə etməlidirlər. Kiçik sahibkarlar yaradılmış şəraitdən istifadə edərək kommersiya bankları vasitəsilə güzəştli kreditlərdən yararlana bilərlər;

- maliyyə dəstəyi ilə yanaşı, xüsusi proqramlar vasitəsilə də həvəsləndirmə mümkündür. Kiçik biznes sahəsində gender balansının dəstəklənməsi məqsədilə qadınların rəhbəri olduğu müəssisələrə vergi güzəştləri tətbiq edilə bilər. Dünya ölkələrində tətbiq olunan bu təcrübələri müəyyən çərçivələr daxilində ölkəmizdə tətbiq etmək olar;

- güclü distribyutor şəbəkələrinə sahib olmaq və məhsullarını geniş auditoriyaya çatdırmaq müəssisələrin əsas uğur amillərindən biridir. Bu baxımdan, müəssisələr marketinq yeniliklərini inkişaf etdirərək ümumi bazar şəbəkələri qura bilərlər;

- innovasiya tətbiqlərini dəstəkləmək məqsədilə dövlət və özəl sektordan yeni ideyaların həyata keçirilməsi üçün müvafiq mühitlərin yaradılması vacibdir. Bir çox kiçik müəssisələr yeni idarəetmə mexanizmləri hazırlayır, lakin bu mexanizmləri həyata keçirmək üçün kifayət qədər resurslara malik deyillər. Bu məsələlərin həlli üçün simulyasiya tədqiqatları və yeni ideyaların həyata keçirilməsi üçün tələb olunan şəraitlərin yaradılması faydalı ola bilər;

- innovasiyaya qarşı böyük maneələrdən biri də məlumat çatışmazlığıdır. Kifayət qədər bilik və məlumat sahibi olan müəssisələr tədqiqat inkişafını dəstəkləmək üçün müxtəlif təşkilatlardan maliyyə dəstəyi ala bilərlər. İnformasiya probleminin həlli, digər bir çox problemlərin aşılmasına kömək edəcəkdir;

- innovasiyaların idarə edilməsi və dəstəklənməsi ilə bağlı menecment kurslarının, xüsusilə də inzibati innovasiya savadlılığını artıran təlim programlarınının təşkil edilməsi və müvafiq sahələrdə fəaliyyət göstərən sahibkarların həmin təlimlərdə iştirakı faydalı olardı;

- innovativ biznesin qarşısında duran ən ciddi problemlərdən biri maliyyə çatışmazlığıdır. Bu səbəbdən, ölkədəki kiçik orta və orta müəssisələrin müstəqil səyləri uğursuz olmuşdur. Yüksək səviyyəli

innovasiya axını təmin etmək üçün mövcud maliyyələşdirmə ilə tam təminat mümkün deyil. Bu problemin həlli üçün Milli inkişaf bankları yaradılmalı, vençur maliyyələşməsi və dövlət dəstəyi ilə yanaşı özəl maliyyə qurumlarının sahibkarlığa dəstəyinə dövlətin təşviqedici tədbirləri həyata keçirilməlidir;

- hüquq, patent, lisenziyalaşdırma, investisiya, ekspert məsləhəti, idarəetmə, texnoloji, tədqiqat, istehsal, sertifikatlaşdırma və digər sahələr gələcəyin innovasiya infrastrukturunu təşkil edir. Bu xidmətlərin təklif olunduğu innovasiya xidmət sistemi yaradılmalıdır;
- innovasiya ekosisteminin mürəkkəbləşməsini və həmçinin innovasiya fəaliyyətinin genişlənməsini nəzərə alaraq, innovasiya infrastrukturu subyektlərinin vahid hüquqi mexanizm daxilində tənzimlənməsinin zəruriliyini qeyd edə bilərik. Buna görə də hesab edirik ki, Azərbaycanda "infrastruktur təminatı haqqında" ayrıca qanunun qəbul edilməsi innovasiya fəaliyyətinin idarəetmə strukturunu tənzimləməyə, innovasiya mühitinin daha sistemli şəkildə inkişafına töhfə verə bilər;
- yaradıcılıq səyləri üçün vergi güzəştlərinin tətbiq dairəsinin genişləndirilməlidir;
- innovasiyanın inkişafı üçün patent hüquqlarının sərbəst verilməsi və effektiv tətbiqinin həyata keçirilməsi də faydalı olar;
- təhsil sistemində innovativ fəaliyyətin inkişafına müvafiq dəyişikliklər həyata keçirilməlidir, iqtisadiyyatda baş verən yeni tendensiyalar və həmçinin proseslər təhsil sisteminə inteqrasiya edilməlidir.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Ağazadə E.A. Nağdsız iqtisadiyyatın ölkənin inkişafında rolu // – Bakı: Geostrategiya, 2022, № 07(70). – s. 124-127
2. Ağazadə E.A. Müəssislərdə innovasiya fəaliyyətinin tədqiqinin nəzəri aspektləri // – Gəncə: "İnnovasiyalı iqtisadiyyat və menecment" jurnalı, 2023, № 2. – s. 49-56.
3. Ağazadə E.A. Azərbaycanda kiçik müəsisələrin inkişafına təsir edən amillər // – Bakı: Qərbi Kaspi Universiteti, Elmi Xəbərlər (İctimai və Texniki elmlər seriyası), 2023, № 2. – s. 205-213.

4. Ağazadə E.A. Directions of increasing the financial stability of small enterprises in Azerbaijan // – Bakı: “Tikintinin iqtisadiyyatı və menecment” jurnalı, 2023, № 3. – s. 200-206.

5. Ağazadə E.A. Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlılığı ilə bağlı məhdudiyyətlər // – Bakı: Geostrategiya, 2023, № 5. – s. 116-118.

6. Aghazadə E.A. Methods, Methods And Rules For Analyzing And Evaluating The Financial Situation Of Economic Entities, Word of Conferences VII international scientific conference, development of science in the XXI century – Dortmund (elmi konfrans), 2023, № 7. – pp. 18-21.

7. Aghazadə E.A. The Role Of Financial Reporting İn The Management System Of Economic Entities, İts Status And Purpose, World of conferences, V international scientific conferences, innovative scientific conference – Toronto (elmi konfrans), 2023, № 5. – pp. 22-26.

8. Aghazadə E.A. Ways Of Strengthening The Financial Stability Of Small Enterprises In Azerbaijan // – Poland: International Journal of Innovative Technologies in Economy (RS Global Journals – ERİH PLUS), 2024, №1(45). – pp. 2-27.

9. Aghazadə E.A. Analysis of the Modern Situation of Taxation in Small and Medium Enterprises // – Baku: VI International Scientific Conference of Economics and Management Researches 23-26 may 2024, № 6. – pp. 826-834.

10. Aghazadə E.A. Theoretical Foundations Of The Formation And Development Of The Institution Of Small And Medium-Sized Businesses, // – Nakhchivan: International “Communication in the new world” congress 13-14 june 2024, Nakhchivan State University, 2024, № 12. – pp. 129-135.

11. Агазаде Е.А. Устойчивость иннова-ционной деятельности в малых предприятиях и принципы управления рисками // – Москва: Экономика и право, 2025, №10. – стр. 6-10.



Dissertasiyanın müdafiəsi 17 iyun 2026-cı il, saat $16^{00}$-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi, 93

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 16 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.05.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 45660 işarə

Tiraj: 100